Ədalət.-2022.- 27 avqust.- S. 6.



FÜZULİ SƏMƏDOV - 75

# BİR ÖMÜRDƏN YARPAQLAR

## Dost haqqında Dost sözü

*Əlövsət BƏŞİRLİ*

**Həyatımın unudulmaz çağlarını - düz 20 ilini Cəlilabadda yaşayıb işləmişəm, öz elinə, torpağına bağlı əqidəli, qətiyyətli, sadə insanlarla, ziyalılarla duz-çörək kəsmişəm.**

Azərbaycanın bu gözəl guşəsinin göz oxşayan, ürək açan mənzərələri yaddaşımda dərin iz salıb. Vaxtilə çox məsul işdə çiyin-çiyinə çalışdığım yoldaşları, dəyərli, etibarlı dostları xoş ovqatla xatırlayıram. Olub-keçənlər kino lenti kimi gözlərim önündə canlanır. Xüsusən bu barədə çox dəyərli, etibarlı dostum Füzuli Səmədov danışanda. O, özünəməxsus maraqla, aramla, çox incə yumorla söhbət edir. Adəti üzrə söhbətini mənə müraciətlə başlayır: "Əlövsət müəllim, yəqin yadınızdadır, xatırlayırsınız..."

Etiraf edirəm ki, yaşa dolduqca çox şey yadımdan çıxır, unuduram. Amma məndən 10 yaş cavan olan, kiçik qardaşım əvəzi Füzuli danışanda, hər şeyi təfərrüatı ilə xatırlayıram...

Mən 1969-cu ildə Azərbaycan Televiziyasında şöbə müdiri işləyəndə o vaxt Mərkəzi Komitənin katibliyinin qərarı ilə Cəlilabada göndərildim, 10 il rayon qəzetinin redaktoru oldum.

Redaksiyamız rayon Komsomol Komitəsi ilə qonşu binada yerləşirdi. Füzuli Səmədov Məktəbli gənclər şöbəsinin müdiri işləyirdi. Komsomol təşkilatının fəaliyyəti barədə rayon qəzetində vaxtaşırı yazıları dərc olunurdu. Sonra rayon Komsomol Komitəsinin katibi seçildi. Onun yüksək təşkilatçılıq qabiliyyəti, təşəbbüskarlığı sayəsində komsomolçu gənclər nəinki respublikada, hətta o vaxt ümumittifaq miqyasında diqqət çəkən uğurlar qazandılar.

Bütün bunlar rayon Partiya Komitəsinin nəzərindən yayınmadı. Füzuli Səmədov partiya işinə məsul vəzifəyə irəli çəkildi.

1980-ci ildə mən raykomun ikinci katibi seçildim. Birinci katib İbrahim Musa oğlu Qurbanov idi. Həyatımın bir çox vacib, ibrətamiz məqamları onun adı ilə bağlıdır. Qurub-yaradan, yorulmaq bilməyən zəhmətkeş, bacarıqlı rəhbər işçi, el-obaya dayaq olan, kasıba əl tutan ağsaqqal idi. İbrahim Musa oğlu! Rəhmətlik həmişə harasa tələsərdi. Başladığı işləri tezliklə qurtarmaq üçün gecəni gündüzə qatar, bütün rayonu ayağa qaldırardı. Rayon mərkəzi olan Cəlilabad şəhərindən başlamış ucqar kəndlərdə də tikinti-abadlıq işləri gedirdi.

Rayon rəhbəri xasiyyətcə sərt, tələbkar, eyni zamanda qayğıkeş insan idi. Onunla işləmək asan deyildi. Biz var qüvvəmizlə çalışırdıq ki, birinci katibin tapşırıqlarını yerinə yetirək.

Raykomun şöbə müdirləri, təlimatçıları səylərini əsirgəmirdilər. Mən görülən işlər barədə vaxtlı-vaxtında birinci katibə məlumat verirdim. Onun gözündən heç bir şey yayınmırdı. Nöqsanları tənqid edir, sözünü kəsərli deyir, zəif işləyənlərə iradını bildirirdi. Heç kimi tərifləməsə də, Füzuli Səmədova rəğbəti vardı. Rayonda tikinti-abadlıq işlərinə nəzarəti ona həvalə etmişdi. Öz işgüzarlığı, təşkilatçılıq bacarığı ilə diqqət çəkən Füzuli rayonda tikinti-abadlıq işlərinin vüsətinə önəm verirdi. Cəlilabadın yaraşıqlı, yaşıllığa bürünmüş mərkəzi küçəsində müasir çoxmərtəbəli binalar sıralanır, göz oxşayırdı. Rayon mərkəzində mədəniyyət evi köhnə, uçuq-sökük binada yerləşirdi. Onun yerində qısa müddətdə ikimərtəbəli müasir Mədəniyyət Sarayının ucaldılması çoxlarını təəccübləndirdi. Həmin binanın yaxınlığında Müəllimlər Evi, Şahmat Evi, dördmərtəbəli mehmanxana, uşaq bağçası, orta məktəb inşa olundu. Eyni zamanda Cəlilabad şəhərindən ucqar dağ kəndlərinə yol çəkildi. Rayonun dağlıq ərazisində 60 kəndi birləşdirən torpaq yola çınqıl-asfalt döşəndi.

İbrahim Qurbanovun vaxtında Cəlilabadda çoxsaylı səyyar tikinti dəstələri fəaliyyət göstərirdi. Onların işinin düzgün tənzimlənməsinə birinci katibin tapşırığı ilə Füzuli Səmədov nəzarət edirdi. Çox keçmədi ki, o, rayon İcraiyyə Komitəsi sədrinin tikinti-abadlıq işləri üzrə müavini vəzifəsinə irəli çəkildi.

Rayon Partiya Komitəsinin ikinci katibi kimi RİK-in tikinti-abadlıq işlərini mən kurasiya edirdim, bu vacib sahədə Füzuli Səmədovla sıx əlaqəli işləyirdim. Onun cavabdeh olduğu işlərə necə məsuliyyətlə yanaşdığını, var qüvvəsilə çalışdığını görür, köməyimi əsirgəmirdim. Beləliklə, rayonda tikinti işlərinin vüsəti güclənir, Cəlilabad müasir, abad şəhərə çevrilirdi. Rayon təsərrüfatın bütün, xüsusilə üzümçülükdə respublikada öndə gedir, Məhsul bayramına hazırlıq görürdü. İbrahim Qurbanovun təşəbbüsü ilə Məhsul bayramı tikintisi ləngiyən 10 min nəfərlik stadiona keçirilməli idi.

Stadionda tikinti işlərinin ləng getməsindən narazı qalan birinci katib təxirəsalınmaz tədbirlər gördü: rayonun bütün tikinti-təmir idarələri stadionun inşasına cəlb edildi. Çoxsaylı inşaatçıların və müvafiq texnikanın işini tənziləyib təşkil etmək Füzuli Səmədova həvalə olundu.

Mahir təşkilatçı Füzuli bu vacib və məsuliyyətli işin öhdəsindən bacarıqla gəldi, 10 min nəfərlik stadionun inşası Məhsul bayramınadək başa çatdırıldı.

***

Telefon zəngi məni xatirələrdən ayırır. Dəstəyi götürürəm, Füzulinin səsini eşidirəm:

- Təbrik edirəm sizi. Səksən yaşınız münasibətilə televiziyada verilişə baxdım. Cəlilabad haqqında xoş sözləriniz təsirləndirdi məni, ötən illər yadıma düşdü. Çox sağ olun.

Sonra telefon zəngləri ara vermir. Cəlilabadda uzun illər bir yerdə işlədiyim Zeynal Zeynalov, Mübariz Əhmədoğlu, Əvəz Xanəliyev, Ələddin İbrahimov, uşaqlarıma dərs verən Ayaz müəllim, Əsəd müəllim, Lerikdən həmkarım, Əməkdar jurnalist Həmzə Vəliməmmədov zəng edirlər. Onlara təşəkkürümü bildirirəm.

Mən Azərbaycan Televiziyasının Mədəniyyət kanalında "Ömrün dolayları" verilişinə baxanda böyük Səməd Vurğunun məşhur sözlərini xatırladım:

***Hər insan ömrünün bir kitabı var.***

İstər-istəməz ömür kitabımı xəyalən vərəqlədim. Gözlərim önündə sıralanan yoldaşların arasında mahir təşkilatçı, səmimi insan, dəyərli dost Füzuli Səmədovu gördüm. O, Bakıya köçüb Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətində 25 ildir ki, Dövlət təşkilatları və media üzrə menecer işləyir.

Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu deyir ki, Füzuli Səmədov Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti yarandığı gündən burada çalışır, öz vəzifəsini ləyaqətlə, böyük məsuliyyət hissi ilə, yüksək səviyyədə yerinə yetirir.

Dostunun tərifinə Füzuli təvazökarlıqla cavab verir:

- Mənimlə birlikdə Şirkətin bütün işçiləri var qüvvə ilə çalışır. Biz hamımız Şirkətin prezidenti cənab Reza Vəziridən nümunə götürürük: gözəl təşkilatçı və nəcib insan kimi! O, baş mütəxəssisdən sıravi fəhləyədək hamıya vəzifəsindən asılı olmayaraq, eyni tələbkarlıqla, həssaslıqla yanaşır, heç kimdən qayğısını, köməyini əsirgəmir.

Elə buna görədir ki, cənab Reza Vəziri həm Şirkətin özündə, həm də qiymətli filiz is-



tehsal edən (qızıl, gümüş, mis) Zavodun çoxsaylı kollektivində böyük hörmət və rəğbət sahibidir.

Əslən azərbaycanlı olan cənab Reza Vəziri Amerika-Azərbaycan Ticarət Palatasının həmsədridir.

***

Həyatımın unudulmaz çağlarını Cəlilabadda yaşayıb işləmişəm, öz elinə, torpağına bağlı əqidəli, qətiyyətli, sadə insanlarla, ziyalılarla duz-çörək kəsmişəm.

Azərbaycanın bu gözəl guşəsinin göz oxşayan, ürək açan mənzərələri yaddaşımda dərin iz salıb. Vaxtilə çox məsul işdə çiyin-çiyinə çalışdığım yoldaşları, dəyərli, etibarlı dostları xoş ovqatla xatırlayıram. Olub-keçənlər kino lenti kimi gözlərim önündə canlanır. Xüsusən bu barədə çox dəyərli, etibarlı dostum Füzuli Səmədov danışanda. O, özünəməxsus maraqla, aramla, çox incə yumorla söhbət edir. Adəti üzrə söhbətini mənə müraciətlə başlayır: "Əlövsət müəllim, yəqin yadınızdadır, xatırlayırsınız..."

Etiraf edirəm ki, yaşa dolduqca çox şey yadımdan çıxır, unuduram. Amma məndən 10 yaş cavan olan, kiçik qardaşım əvəzi Füzuli danışanda, olub-keçənləri təfərrüatı ilə xatırlayıram. Xatırladıqca, aylar, illər, olaylar elə bil quş kimi uçur, yaş üstə yaş gəlir. Lap sütül, cavan vaxtından tanıdığım, bir yerdə işlədiyim çox etibarlı, dəyərli dostum Füzuli sanki gözlərim önündə yaşa dolur, müdrikləşir, 75-in arxasını yerə vurur, amma yenə işindən qalmır, Beynəlxalq Şirkətdə məsul vəzifədə çalışır. Mənsə 80-ni artıq adlamışam. Təqaüdə çıxsam da, qələmi yerə qoymamışam. Yazıb-pozuram, Ustad demişkən, "az-az uydururam yeri gələndə". Füzuli kimi dəyərli dostlardan, səmimi insanlardan, İbrahim Musa oğlu təki vaxtilə tikib-quran, bolluq yaradan kişilərdən yazıram.

Tanrıma, taleyimə minnətdaram ki, ömrün bu çağına yetirdi məni.

Böyük şairin cavanlığımda çox sevdiyim, indi isə bütün varlığımla duyub-yaşadığım siqlətli misraları qulağımda səslənir:

**Ömrün kitabını tamamlamağa**
**Çox da can atmasın əlimdə qələm,**
**Nə şadlıq səyritsin atını, nə qəm,**
**Heç yana, heç yerə mən tələsmirəm!**

Dəyərli dostum Füzuliyə xitabən Vurğun dililə: "Uzadaq ömrünü hər bir anın da. Yel kimi keçməsin vaxt üstümüzdən" - deyirəm.

Azərbaycan özünün unikal coğrafiyası, yeraltı, yerüstü sərvətləri ilə həmişə diqqət mərkəzindədir. Elə bu sərvətlərimiz də həmişə başqalarında qısqanclıq və hərislik hissi yaradıb. Bu gün də biz onun acısını çəkirik. Belə ki, Ermənistanla sərhəddə yerləşən Zəngilan rayonu ərazisindəki "Vejnəli" qızıl-filiz yatağı hələ 1997-ci ildən Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin ərazisi kimi rəsmiləşmişdir. Lakin düşmən işğalı bu ərazilərdən, ümumiyyətlə, işğal altında olan torpaqlarımızdan yararlanmağa, bizə, həmçinin beynəlxalq şirkətimizə imkan verməmişdir. 25 ilə yaxın bir müddətdə "Vejnəli" düşmənin talançılığına məruz qalmış və ermənilər Azərbaycan qızılını acgözlüklə talamışdılar.

Şükürlər olsun ki, 2020-ci ilin sentyabr ayının 27-də başlanan Böyük Vətən Müharibəmiz Zəfərlə başa çatdı. Düşmən dəmir yumruğun gücünü açıq şəkildə hiss etdi. Məhz həmin o qələbədən sonra digər ərazilərimiz kimi "Vejnəli" qızıl-filiz zavodu da düşmən işğalından, talanından xilas oldu. Təəssüf ki, düşmən bu əraziləri tərk edəndə öz vandal xislətini nümayiş etdirdi. Yəni zavodun bütün avadanlıqlarını, texnikalarını yararsız hala saldı. Amma bu, müəssisənin kollektivini - "Vejnəli"yə qayıdışı böyük ümidlə gözləyənləri ruhdan salmadı. Onlar qollarını çırmalayıb "Vejnəli"də iş şəraitini yenidən qurmağa enerji, su, yol və digər avadanlıqlarla bağlı zəruri işləri görməyə başladılar. Artıq burada demək olar ki, ən zəruri addımlar atılmış və zavodun işlək hərəkəti bərpa olunmuşdur. Demək olar ki, ən qısa zamanda bu zavoda Azərbaycan qızılının emalı işi öz töhfəsini verəcəkdir. Özü də bu iş təkcə "Vejnəli"də deyil, həmçinin digər üç yataqda da həyata keçirilər, yəni Şəmkir rayonu ərazisindəki Qardağ, Kəlbəcər və Ağdam rayonları arasındakı Dəmirli qızıl-filiz yataqları da artıq istifadəyə hazırdır. Barəsində fikir söylədiyimiz bu yataqların uğurlu istismarı üçün ən zəruri addımlar atılıb.

**...Bəli, bu bir insan ömrüdür. Özü də həyatın hər üzünü görən, çətinliklərinə, sınaqlarına dözən və qalib gələn bir insanın ömrüdü. O, indi ömrünün 75-ci ilini qeyd edir və ən maraqlısı da budur ki, o, həmin 75 ilin 25-ni özünün hər zaman arzuladığı, həyatını həsr etdiyi işlə yaddaşına köçürüb. Necə deyərlər, tarixləşdiribdir. Füzuli Səmədov təkcə işi ilə, əməli ilə deyil, həm də insani çalarları və bütöv şəxsiyyəti ilə fərqlənməyi, öndə olmağı, ən vacibi isə özünü təsdiq etməyi həmişə bacarıb. Bu gün də o, yorulmadan yalnız həyat qayəsi olan Vətənə, dövlətə xidməti, bir də arzularını qanadlandırmağı özünün kredosu hesab edir. Onu uzun illərdən bəri tanıyan, dostluq edən bir şəxs kimi mən əminliklə vurğulayıram ki, dəyərli Dostum sükanı həmişə belə saxlayacaq. 75 yaşın mübarək, qardaş!**